Press – reliz

Mədən sənayesində şəffaflığın  vacibliyi

20 may  2017-ci il                                                                 Neftçala şəhəri

Niderland Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə Avrasiya Əməkdaşlıq Fondu “Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi” Proqramını həyata keçirir. Bu Proqram çərçivəsində “AHT Platforması fəaliyyədə” layihəsi üzrə 09.05.2017-ci il  tarixində  Neftçala rayonunda  “Mədən sənayesində şəffaflığın səviyyəsi”nə dair ictimai müzakirə keçirilmişdir**.** Müzakirədə müxtəlif sahələrdə fəaliyyət göstərən şəxslər (QHT təmsilçiləri, neft sənayesində və başqa sahələrdə çalışan işçilər, və s) iştirak etmişdir. İctimai müzakirədə ekspert Mirvari Qəhramanlı iştirakçılara “Mədən sənayesində şəffaflığın vacibdliyi” mövzusunda təqdimatla çıxış etmişdir.Təqdimatda  MHŞT nədir,onun prinsipləri, ictimaiyyət üçün vacibliyi,neft gəlirləri və onun xərc istiqamətləri  qeyd olunmuşdur. İctimai dinləmədə iştirak edən insanlar bütün sferaları əhatə etdiyindən iştirakçılar tərəfindən sual daha çox idi. Suallar əsasən hasilat sənayesində şəffaflığın təmin olunmamasından, neft gəlirləri və bu gəlirlərin təsirinin öz rayonlarında niyə hiss etmədikləri ilə bağlı idi.  İştirakçıların çoxsaylı suallarına ətraflı izahat verilmişdir. İnsanların mövzuya həssaslığı,verilən suallardan aydın olur ki, rayonda bu sahə üzrə kifayət qədər məlumatlandırılma aparılmamışdır və aparılmayır. Səbəblərdən biri də seminar iştirakçılarının əksəriyyətinin  müvafiq icra qurumları tərəfindən göndərilən və “müstəqil şərh vermə” hüququna  malik olmayan şəxslərdən ibarət olmasıdır. Gələcəkdə məlumatlandırma iləəlaqədar yeni mexanizmin seçilməsinə ehtiyac duyulur.

Ekspert

Mirvari Qəhramanlı